Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 33** **QƏRAR** **Bakı şəhəri, 5 fevral 2016-cı il**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 15 may tarixli 78 nömrəli qərarı ilə təsdiq edilmiş "Terror əleyhinə əməliyyatları idarəetmə üzrə Əməliyyat Qərargahının fəaliyyətini təmin etmək məqsədi ilə yaradılan əməliyyat qruplarının funksional vəzifələrinə dair Nümunəvi Təlimat"da dəyişikliklər edilməsi haqqında

"Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1396-IVQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 1 noyabr tarixli 1502 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 15 may tarixli 78 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 386) ilə təsdiq edilmiş "Terror əleyhinə əməliyyatları idarəetmə üzrə Əməliyyat Qərargahının fəaliyyətini təmin etmək məqsədi ilə yaradılan əməliyyat qruplarının funksional vəzifələrinə dair Nümunəvi Təlimat"ın 1.1-ci bəndində "terror aksiyalarının" sözləri "terror aktlarının" sözləri ilə, 2.4-cü bəndində və 3.19-cu bəndinin ikinci abzasında "terror aksiyasının" sözləri "terror aktının" sözləri ilə əvəz edilsin.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***